# Xalq qəzeti

Xalqın qəzeti!

№ 17 (30711) 26 yanvar 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycan qlobal iqtisadi məkanın maraq dairəsində

*Davos görüşləri ölkəmizin iqtisadi potensialını bir daha nümayiş etdirdi*



**Hər il ənənəvi olaraq İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda (DİF) respublikamızın da iştirakı dünyada cərəyan edən iqtisadi meyillər haqqında dolğun məlumatlar almağa, eyni zamanda, ölkəmizin iqtisadi potensialı, xarici investisiyaların cəlb olunması imkanlarının təqdimatına, dünyaya lazımi mesajların ötürülməsinə əlverişli şərait yaradır. Toplantıda irəli sürülən yeni fikirlər, təkliflər qlobal iqtisadiyyata yeni istiqamətlər verir. Bunlar iqtisadi güc mərkəzlərinin bir-biri ilə dialoquna xidmət edir və ölkəmizin dünya ictimaiyyəti üçün hesabatına çevrilir.**

Dövlətimizin ildən-ilə artan nüfuzu və iqtisadi imkanları, regionda baş verən hadisələr, eləcə də yeni reallıqlar fonunda keçən Davos–2025 forumu ölkəmizə daha mühüm siyasi və iqtisadi dividendlər əldə etmək üçün əlverişli şərait yaratdı, dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasının mühüm istiqamətlərindən biri olan Azərbaycan iqtisadiyyatının biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması ilə bağlı məsələlər ətrafında geniş söhbət – müzakirələr aparıldı.

**(ardı 7-ci səhifədə)**




**(əvvəli 1-ci səhifədə)**

Bu forumda cəmiyyətlərdə sosial etibarın bərpası, şəffaflıq, hesabatlılıq və idarəetmənin təkmilləşdirilməsi, dünyada iqtisadi artımın zəiflədiyi bir şəraitdə inklüzivlik, dayanıqlılıq və davamlı inkişaf yönündə yeni iqtisadi modellərin tətbiq olunması, insan kapitalına müasir yanaşmalar, iqlim dəyişikliyi və ətraf mühitin çirklənməsi ilə mübarizə və digər məsələlər müzakirə edildi.

Bütün bunlarla yanaşı, Davos –2025 forumu ölkəmizin qlobal arenadakı mövqeyini gücləndirmək, investisiya cəlb etmək və strateji tərəfdaşlıqlar qurmaq üçün mühüm fürsətə çevrildi. Prezident İlham Əliyevin iştirakı ilə keçirilən görüşlərdə Azərbaycan reallıqları beynəlxalq ictimaiyyətə təqdim edildi, respublikamızda baş verən iqtisadi meyillər haqqında dolğun məlumat verildi. Dövlət başçısının Davos–2025 forumu çərçivəsində keçirdiyi çoxsaylı görüşlərdə ölkəmizin "yaşıl" enerji, tranzit potensialı və texnoloji innovasiyalar sahəsində böyük perspektivlərə malik olması qarşı tərəfin diqqətinə çatdırıldı.

Forumda müzakirələr 5 əsas istiqamət üzrə təşkil olunmuşdu. Belə ki, müzakirələrə inkişafın yenidən dizayn edilməsi, intellektual əsrdə sənayelər, insan kapitalına investisiya, planetin mühafizəsi və etimadın bərpası mövzuları daxil edilmişdi. Forum çərçivəsində təşkil olunan sessiyalarda qlobal təhlükəsizlik, ticarət, iqtisadi artım, iş yerləri, iqlim və təbiətlə bağlı fəaliyyətlər, enerji keçidi, texnoloji pozulmalar, sağlamlıq və rifah üzrə irəliləyişlərlə əlaqədar müzakirələrin keçirilməsi yüksək dəyərləndirildi. Fikir mübadiləsində əsas məqsəd kollektiv fəaliyyət azadlığını gerçəkləşdirmək və liderlər arasında şəffaflıq, ardıcıllıq və hesabatlılıq kimi əsas prinsipləri gücləndirmək idi və demək olar ki, buna tam nail olundu.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin Davosda qarşı tərəflərin müraciəti əsasında Almaniya Kansleri Olaf Şolts, İsrailin Prezidenti İsxak Hersoq, Latviya Prezidenti Edqars Rinkeviçs, İraq rəhbəri Camal Rəşid, Ukrayna Prezidenti Volodimir Zelenski və digər şəxslərlə keçirdiyi görüşlərdə Azərbaycan ilə həmin ölkələr arasında iqtisadi, ticari, mədəni, humanitar əlaqələrin inkişaf etdirilməsi barədə geniş fikir mübadiləsi aparıldı. Biznes dairələrinin qarşılıqlı səfərlərinin təşkilinin, onlar arasında birbaşa təmasların yaradılmasının vacibliyi vurğulandı. Dövlət başçımızın dünyanın nəhəng investisiya və maliyyə şirkətlərinin rəhbərləri ilə də görüşləri yaddaqalan oldu.

Prezident İlham Əliyev Davosda qarşı tərəfin müraciəti əsasında "Carlsberg Group" şirkətinin Müşahidə Şurasının sədri Henrik Poulsen və Baş icraçı direktoru Yakob Aarup-Andersen ilə görüşü də bir sıra mühüm məqamlarla diqqət çəkdi. Henrik Poulsen rəhbərlik etdiyi şirkətin respublikamızda uğurlu fəaliyyətinə toxunaraq, ölkəmizdə mövcud olan investisiya mühitindən razılığını vurğuladı, xüsusilə mülkiyyət hüquqlarının qorunması istiqamətində Azərbaycanın xarici investorlara təqdim etdiyi çərçivəni yüksək qiymətləndirərək yaradılmış şəraitə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi.

Dövlətimizin başçısının Davosda qarşı tərəfin müraciəti əsasında dünyanın ən böyük liman operatorlarından biri olan "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə görüşündə "DP World" şirkətlər qrupunun ölkəmizdəki fəaliyyətinin perspektivləri, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin yaratdığı imkanlar barədə müzakirələr aparıldı, Azərbaycanın regional nəqliyyat qovşağı kimi rolu xüsusi vurğulandı, mümkün əməkdaşlıq istiqamətləri müzakirə olundu.

Yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlinir ki, Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.

Göründüyü kimi, Prezident İlham Əliyevin Davosda bir sıra dövlət başçıları, nəhəng şirkətlərinin rəhbərləri ilə keçirdiyi görüşlərdə də bu fikir bir daha öz təsdiqini tapıb. Dövlətimizin başçısı Davosdan özünün sosial şəbəkə hesabında etdiyi paylaşımda bildirib: "Bizim xarici ölkələrlə münasibətlərimiz yalnız qarşılıqlı maraqlar və qarşılıqlı hörmət əsasında qurulur. Siyasi gücündən, yaxud da ki, böyüklüyündən, ərazilərindən asılı olmayaraq, bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qura bilmişik".